# 2024-cü ildə Xəzəryanı ölkələrin Bəstəkarlar Assosiasiyasının təsis edilməsi nəzərdə tutulur

**2024-cü ildə Rusiya, Azərbaycan, İran, Qazaxıstan və Türkmənistanın bəstəkar icmalarının davamlı şəkildə qarşılıqlı fəaliyyət göstərməsinə imkan verəcək Xəzəryanı ölkələrin Bəstəkarlar Assosiasiyası təsis ediləcək.**

Bu fikri Xəzəryanı dövlətlərin simfonik orkestrinin bədii rəhbəri və dirijoru Mixail Qolikov Xəzəryanı dövlətlərin bəstəkarlarının I Beynəlxalq Forumu çərçivəsində "TASS" agentliyinə müsahibəsində deyib.

Avqustun 23-də Həştərxanda "Xəzər fəsilləri" beynəlxalq klassik incəsənət festivalı çərçivəsində ilk dəfə olaraq Xəzəryanı dövlətlərin bəstəkarlarının I Beynəlxalq Forumu keçirilir. Azərbaycan, Rusiya, Qazaxıstan, İran və Türkmənistanın mədəniyyət xadimləri və bəstəkarları bu tədbirdə iştirak ediblər.

Bildirək ki, avqustun 22-də Həştərxanda "Xəzər fəsilləri" Beynəlxalq Klassik İncəsənət Festivalı başlayıb. Festival çərçivəsində avqustun 25-dən 28-dək Həştərxan Filarmoniyasında Azərbaycan, İran, Qazaxıstan və Türkmənistan günləri keçiriləcək. Xəzəryanı ölkələrdən 70-ə yaxın musiqiçinin daxil olduğu Xəzəryanı dövlətlərin simfonik orkestri "Xəzər fəsilləri"nin əksər tədbirlərinin fəal iştirakçısı olacaq.

---

Azərbaycan. - 2023.- 25 avqust.- S.7.